


# COROLLA
## Aksesuarlar

# Qorunma



## Qapı dəstəyinin qoruyucu örtüyü

Avtomobilinizin qapı dəstəkləri ətrafındakı boya örtüyündə kiçik cızıqların yaranmasının qarşısını almaq üçün etibarlı qoruyucu. Onlar özü yapışan bərk şəffaf təbəqədən hazırlanıb və qapının formasına tam uyğun gəlir.



## Arxa bamper üçün qoruyucu örtük

Arxa bamperdəki boya örtüyünü yük yerinin yüklənməsi və boşaldılması zamanı kiçik sürtülmə və cızıqlardan qorumağa kömək edir. Özü yapışan bərk şəffaf təbəqədən hazırlanıb və avtomobilin bamperinə uyğun gələcək şəkildə formaya salınıb.



## Arxa bamperin qoruyucu lövhəsi

Arxa bamperin boya örtüyünü ağır və ya həcmli yüklərin yük yerinə sürüşdürülməsi zamanı cızılmadan qorumaq üçün dizayn edilib. O, eyni zamanda yük yerinin boya örtüyünü də qorumaq üçün xüsusi effektivliyə malikdir.

## Yük yeri altlığı

Avtomobilinizə ideal uyğun gələn xüsusi yük yeri altlığı. O, yük bölməsini zədə və çirkdən qoruyur.





## Yüngül lehimli disk qoruyucusu

Toyota ProTect yüngül lehimli disk qoruyucusu NASA tərəfindən hazırlanmış yeni inqilabi örtükdür. O, qiymətli yüngül lehimli disklərə əyləc tozu, yol çirki və havadan əvəzedilməz dərəcədə müdafiə bəxş edir.

## Qapı kənarlarının qoruyucusu

Qapı kənarlarının boya örtüyünü zədələyə biləcək zərbələrdən qoruyur. Eyni zamanda qapının dizaynının tərkib hissəsinə çevrilir və demək olar ki, nəzərə çarpmır. Fərqli rənglərdə təqdim edilir.





## Uzunömürlü korpus qoruyucusu

Silisium əsaslı xüsusi texnologiyaya əsaslanan uzunömürlü korpus qoruyucusu. 80 ml-lik butulka ehtiyatla istifadə edildiyi halda ən iri Toyota 4x4 və universal tipli avtomobillərinin emalı üçün kifayət edir.

# Qorunma

## Təhlükəsizlik dəsti üçün çanta

Xəbərdarlıq üçbucağı, təhlükəsizlik gödəkcəsi və ilk yardım dəsti Toyota brendli çantada bir araya gəlib. Bu çanta avtomobilin baqaj bölməsində saxlanıla bilər.




## Rezin ayaqaltılar

Orijinal rezin ayaqaltılar avtomobilinizə tam uyğun dizayna malikdir. Sürücünün ayaqaltısı istifadə zamanı sürüşmənin qarşısını almaq üçün xüsusi bərkidiciyə malikdir.







## Təkər təmir dəsti

Təkəriniz deşildiyi halda təmir edilməsi üçün kompressor və hermetik butulkası.



## Ön və arxa palçıqönləyiciləri dəsti

Avtomobilinizə ideal uyğun gələn mükəmməl palçıqönləyiciləri dəsti.



### Təkər saxlama çantası

Təkərlərinizi və/yaxud şinlərinizi saxlamaq üçün avtomobildən çıxardığınız zaman onları təsadüfən zədələnməkdən qoruyur. (Bu saxlama çantası bütün təkərlərə və/yaxud şinlərə uyğun gəlmir.)






### Uşaq oturacağı

Azyaşlı sərnişinlərin qayğısına qalmaq xüsusi diqqət tələb edir. Bizim uşaq təhlükəsizlik oturacaqları ilə hər bir yaş qrupu üçün özəl seçimlərin olduğuna əmin ola bilərsiniz. (0-12 yaş və ya 36 kq-dək).

### Təkər kilidi - dəst

Sərtləşdirilmiş poladdan hazırlanmış şifrəli təkər kilidləri yüngül lehimli diskləriniz üçün möhkəm müdafiəni təmin edir.

# Eksteryerin üslubu



▲ **Köndələn tirlər**

Köndələn tirlər dam relslərinə qoşulur və fərqli daşınma qurğularının quraşdırılması üçün təhlükəsiz baza formalaşdırır.

▶ **Dam yük yeri tirləri üçün saxlama çantası**

Toyota dam yük yerinin iki tirli versiyasının avtomobildən çıxarılması zamanı saxlanması üçün nəzərdə tutulmuşdur.





▲ **Yan kandarlar**

Avtomobilinizin aşağı yan kənarları boyunca uzanan xrom kandarlar onun relyefli cizgilərini daha da vurğulayır. Qara və xrom rəng seçimləri mövcuddur.

▶ **Arxa Spoyler**

Arxa spoyler asanlıqla avtomobilinizin axıcı formasına uyğun gəlir və daha üstün performans təəssüratı yaradır. Fərqli rənglərdə mövcuddur.



### Alüminium pillə üstlükləri

Qapı kandarları üçün orijinal pillə üstlükləri ilk baxışdan dəbli görünüş yaratmaqla yanaşı, kandarların boya örtüyünün ləkə izləri, cızıq və zədələrdən qorunmasında praktiki əhəmiyyət daşıyır.  2 növdə mövcuddur"







### Açar üzlüyü

Hibrid seriyası üçün xüsusi gümüşü dizaynda daxilolma açarı üzlüyü.




### Arxa yük yerinin aşağı hissəsinin bəzəyi

Avtomobilinizin yük yerinin aşağı hissəsi boyunca quraşdırılan dəbli ağıllı xrom işləmə avtomobilin görünüşünə rəng qatır.

# Eksteryerin üslubu

### Yüngül lehimli disk - 16 düym



### Yüngül lehimli disk - 16 düym



### Yüngül lehimli disk - 17 düym



### Yüngül lehimli disk - 17 düym



### Yüngül lehimli disk - 17 düym



### Yüngül lehimli disk - 18 düym





## Ön külək deflektorları

Avtomobilinizi pəncərələr açıq vəziyyətdə sürmək istədiyiniz halda külək deflektorları idealdır. Onlar avtomobilinizin aerodinamik konturlarını nəzərə almaqla və sizi, habelə sərnişinlərinizi həddən artıq külək axınından və səsdən qorumaq məqsədilə əks hava axınına uyğunlaşdırılaraq dizayn olunmuşdur.



## Ayaq yerinin işıqlanması - mavi

Avtomobilinizin ayaq yeri üçün dəbli işıqlandırma funksiyası. İstənilən qapını açdığınızda işıq avtomatik yanır. Qaranlıq gecədə sakitləşdirici rahatlıq və təhlükəsizlik hissi bəxş edir.



## Başaltı dok-stansiyası

Kompakt dizayn dok-stansiyanın ön oturacağın başaltı yastıqlarının ətrafında sürətlə və asanlıqla quraşdırılmasına imkan verir. O, tənzimlənən planşet tutqacı üçün quraşdırma yerinə, habelə pencək və ya alış-veriş çantasının asılması üçün iki yığılan qola malikdir.

# Sürücünün rahatlığı






### Yığılan saxlama qutusu

İstifadə edilmədikdə yığılır, lazım gəldikdə isə səyahət üçün zəruri əşyaların səliqəli şəkildə saxlanması üçün açılır.

### Təkər təzyiqinə nəzarət sistemi (TPMS)

Təkər təzyiqinə nəzarət sistemi (TPMS) hər bir təkərin təzyiqinə nəzarət edir və təkərin havası 25% və ya daha çox azaldıqda, işıq siqnalı ilə bu barədə xəbərdarlıq verir.



### Külqabı

Külqabı mərkəzi stəkanaltıda səliqəli yerləşdirilmişdir və boşaltma və təmizlənmə üçün asanlıqla yerindən çıxarıla bilər. O, həmçinin xırda əşyaların saxlanması üçün də istifadə oluna bilər.

# Daşıma



## ▲ Velosiped tutqacı

Velosipedin rahat daşınması üçün velosipedin təkərləri onun asanlıqla şaquli şəkildə düz dayanmasına imkan verən xüsusi hazırlanmış profilə bərkidilir.

## ▶ Yük qutusu

Tətil səyahətlərində əlavə baqaj yeri təmin etmək üçün xüsusi olaraq hazırlanmışdır. Qutu, hava müqavimətini, külək səsini və vibrasiyaları azaltmaq üçün axıcı xətli konstruksiyaya malikdir və yükləmə və boşaltma proseslərini asanlaşdırmaq üçün hər iki tərəfdən rahatlıqla açılır.




## ▶ Yedək cihazı

Açılıb-bağlanan yedək cihazı istədiyiniz zaman yedəkləmə üçün diyircəkli dirəyi asan şəkildə bağlaya və ehtiyac olmayan zaman aça bilməyiniz üçün xüsusi dizayna malikdir. Sistem bağlanır və korroziya əleyhinə bərk səth örtüyünə malikdir.





## ▲ Xizək və snoubord saxlayıcı

İstifadəyə asan xizək saxlayıcı. Xizəklər/snoubordlar avadanlığın xüsusi qorunmasını təmin edən 2 rezin profil arasında yerləşdirilir.

www.toyota.az

Əlimizdə olan ən son məlumatlara görə, bu broşürdakı bütün məlumatlar çap olunduğu an düzgündür. Bu broşürda təqdim edilmiş texniki xüsusiyyətlər və avadanlıqlar haqqında məlumatlar yerli şərt və tələblərdən asılıdır və nəticə etibarilə, yaşadığınız ərazidə mövcud olan modellərdən asılı olaraq dəyişə bilər. Yerli texniki xüsusiyyətlər və avadanlıqlar haqqında məlumat almaq üçün yerli rəsmi dilerə müraciət edin. · Avtomobillərin korpusunun rəngi bu broşürda çap edilmiş fotolardan cüzi şəkildə fərqli ola bilər. · Bu broşürda verilmiş QR kodların® oxunması istifadə etdiyiniz skanerdən asılı olaraq dəyişə bilər. Cihazınız hər hansı QR kodu® və ya interaktiv məzmun markerlərini oxuya bilməzsə, Toyota bunun üçün məsuliyyət daşımır. · Toyota Motor Europe əvvəlcədən bildiriş vermədən texniki xüsusiyyətlər və avadanlıqlar haqqında hər hansı məlumatları dəyişdirmək hüququnu özündə saxlayır. · © 2020 by Toyota Motor Europe NV/SA ('TME'). · Bu nəşrin heç bir hissəsi "Toyota Motor Europe"ın əvvəlcədən yazılı razılığı alınmadan hər hansı şəkildə yenidən nəşr edilə bilməz.